UOT 32 (327)

AYTƏN KƏRİMLİ
Bakı Dövlət Üniversiteti,
Avropa və Amerika ölkələri tarixi kafedrası
aytenkerimli92@gmail.com

ABŞ STRATEGİYASINDA İRAQ NEFTİNİN ROLU

DOI: https://doi.org/10.36719/2708-065X/107/176-181

Məqalədə Amerika Birləşmiş Ştatlarının İraqdakı qüvvələrinin mövcudluğunda neft amilinin rolu tarixi retrospektivdə araşdırılmışdır. Müəllif ABŞ-ın Fars körfəzi regionunda, xüsusən də İraqda geo-strateji, iqtisadi və siyasi maraqlarını təhlil edərək belə qənaətə gəlir ki, İraqın ABŞ tərəfindən işğalı terrorla mübarizə məqsədi daşımamış, ilk növbədə İraqın zəngin enerji ehtiyatlarının işlənməsinə nəzarəti ələ keçirmək olmuşdur. Bu dünya bazarında neftin qiymətini müəyyən etməyə imkan verməklə yanaşı həm də regionda digər beynəlxalq aktyorların hökmranlığının qarşısını almaq və enerji resursları uğrunda mübarizədə rəqabətdən yayınmaq ABŞ-ın maraqlarına uyğun idi. Bu tədqiqatın əhəmiyyəti İraq neftinin Amerika strategiyasındakı rolunun müəyyən edilməsi və enerji resurslarının İraqın işğalında əsas amillərdən birinə çevrilməsinin Yaxın Şərq regionuna təsirlərini araşdırmaqdır.

Açar sözlər: İraq, ABŞ, Yaxın Şərq, işğal, neft, terror, strategiya.

Giriş. Hər bir dövlətin xarici siyasətində enerji amilinin təsiri mövzusunun aktuallığı ildən-ilə artır. Hazırda enerji resurslarının ixracatı və təhlükəsiz daşınması, onun ticarətini müasir dünya iqtisadi əlaqələrinin ən mühüm elementi halına gətirmişdir. Belə ki, enerji iqtisadiyyat və ticarət kimi həyati əhəmiyyətli sektorların idarə edilməsində əsas rol oynayır. Amerika hökumətinin məqsədlərindən biri də dünyanın enerji mənbələri üzərində nəzarəti qoruyub saxlamaqdır. Bildiyimiz kimi, bu müstəmləkə imperiyası, eləcə də onun transkontinental şirkətləri və sahibləri tarix boyu neft axtarışında bütöv ölkələri məhv etməkdən çəkinməmişdilər. Araşdırmalara görə, neft ehtiyatlarının 70%-i Yaxın Şərq regionunda yerləşir, ona görə də bu regionda mövcudluq ABŞ-ın strateji maraqlarına uyğundur. Hətta 1925-ci ildən (bu il İraqda neft ehtiyatları aşkar edilmişdir) İraq bu günə qədər davam edən müstəmləkə imperialist işğalının təsirini hiss etməyə başlamışdı [14]. Bu tədqiqatın obyekti İraq ərazisində yerləşən enerji ehtiyatları, mövzusu isə ABŞ qüvvələrinin İraqda mövcudluğu faktorudur. Tədqiqatın metodoloji əsasını sistemli yanaşma təşkil etmişdir. Bununla yanaşı problem araşdırarkən başqa tədqiqat metodlarından da istifadə olunmuşdur. Tarixi metod - yaxın bir neçə onillikdə ABŞ və İraq arasında münasibətlərin və qarşılıqlı əlaqələrin retrospektivini və inkişafını aşkar etmək; müqayisəli üsul - ABŞ-ın Yaxın Şərq regionunda, xüsusən də İraqda müxtəlif mərhələlərdə fəaliyyətinin xarakterini və miqyasını müqayisə etmək; induktiv metod - ABŞ-ın İraq qarşı apardığı mərkli siyasətin beynəlxalq vəziyyətə təsirinə təhlil etməkdir. Tədqiqatda resurs-aktyor yanaşmasından da istifadə olunmuş, onun çərçivəsində ABŞ-ın, eləcə də ölkənin xarici siyasətinin həyata keçirilməsində bilavasitə iştirak edən qeyri-dövlət subyektlərinin resurs bazası, həmçinin İraqda öz məqsədlərinə çatmaqda göstərdikləri fəaliyyətlər təhlil edilmişdi. Bundan əlavə, ABŞ siyasətinin vektorunu müəyyən etmək üçün çıxışların və xarici siyasət sənədlərinin məzmunu təhlil edilmiş, eləcə də problem-xronoloji və ideoqrafik metodlardan, təhlil, induksiya, deduksiya, analogiya və ümumiləşdirmə üsullarından istifadə edilmişdir.

Məlum olduğu kimi Ərəbistan yarımadasının dövlətləri, eləcə də Körfəz ölkələri bütün dünyada ən böyük enerji ehtiyatlarına malikdir. İraq, Avropa ilə Hind okeanı regionunu birləşdirən dövlət olduğunu nəzərə alsaq hələ ötən əsrdən bəri imperialistlərin strateji məqsədi bu ölkə üzərində nəzarəti genişləndirmək olmuşdur. Böyük Britaniya, Almaniya, ABŞ, Türkiyə və bir sıra Avropa ölkələri arasında İraqda olmaq və buradakı enerji mənbələrinə nəzarət etmək imkanı uğrunda şiddətli rəqabət var idi.

İraq dünya neft ehtiyatlarına görə Səudiyyə Ərəbistanından sonra ikinci yerdədir, lakin İraqdakı faktiki ehtiyatlar daha çoxdur. Bundan əlavə, aşağı hasilat xərcləri ilə yeni neft mənbələrinin kəşf edilməsi imkanı vardır. Bu səbəbdən də İraqda hakim olmaq, dünya neft ehtiyatlarının təxminən

dörddə birinə nəzarət etmək deməkdir. Həmçinin İraqın coğrafi mövqeyi ona Fars körfəzində cəmləşən dünya neft ehtiyatlarının üçdə ikisinə nəzarət etməyə imkan verir ki, bu da öz növbəsində bu ölkənin geostrateji maraqlarını nəzərə alaraq ABŞ üçün daha da vacib edirdi. Amerikanın bölgədəki əsas məqsədi neft qiymətlərinə nəzarət edə bilmək üçün İraq iqtisadiyyatında hakim mövqeyə malik olmaq idi. Bu eyni zamanda ABŞ üçün Almaniya və Fransa kimi Avropa ölkələrinin, habelə bəzi başqa ölkələrin beynəlxalq siyasətlərinə də təsir etmək demək idi. [18]. ABŞ-ın məqsədlərindən danışarkən, xüsusilə qlobal iqtisadiyyatları sarsıdan maliyyə fəlakətindən sonra qiymətlərə nəzarət etmək imkanını qeyd etmək lazımdır. Böyük itkilərə məruz qalan ABŞ bu ssenarinin təkrarlanmaması üçün "zəif dollar" siyasətini həyata keçirmişdir. Bir çox ekspertlər "zəif dollar" siyasətinin dünya hökmranlığının sonunu ifadə etdiyinə inansada, amma reallıqda belə deyildir. Dolların zəifliyi ABŞ-ın yürütdüyü yeni siyasətdən başqa bir şey deyildir. Çünki "zəif dollar" siyasəti təkcə iqtisadi deyil, ABŞ-ın bütün maraqlarına xidmət edən çoxşaxəli siyasətdir. Bu siyasət sayəsində qlobal maliyyə sistemi İraq nefti kimi Amerikanın nəzarəti altında olacaqdır. Amerikanın İraqda neftə nəzarət etməsi dünyadakı neft qiymətlərinə nəzarət etmək imkanı verəcək və bununla da Fars körfəzi neftinin qiymətini ən aşağı səviyyəyə endirməklə ciddi nəticələrə gətirib çıxaracaqdır. Körfəz nefti onun iqtisadiyyatı üçün vacib olduğundan, nəticə etibari ilə ərəb ölkələrinin iqtisadi səviyyəsinin zəifləməsinə səbəb ola bilər ki, bu da ABŞ-ın regionda əsas geostrateji məqsədlərindən biri idi [4].

Qeyd etdiyimiz kimi Şərqlə Qərbin kəsişməsində yerləşən və üç qitəni - Asiya, Afrika və Avropanı birləşdirən İraqa nəzarət ABŞ-a həm Körfəz ölkələri, həm də Yaxın Şərqin qalan hissəsinə nəzarət etməyə imkan verirdi. Araşdırma göstərir ki, ABŞ-ı Bağdadı işğal etməyə və Səddam Hüseyn rejimini devirməyə sövq edən yeganə amil neft olmamışdı. Yəqin ki, İsrailin və onun regiondakı müttəfiqlərinin, yəni bəzi körfəzi ölkələrinin təhlükəsizliyini qorumaq və ya İranı nəzarətdə saxlamaq, habelə nüvə proqramını məhdudlaşdırmaq kimi digər eyni dərəcədə əhəmiyyətli səbəblər də öz təsirini göstərmişdir. Eyni zamanda güman etmək olar ki, bütün bu səbəblər bir-biri ilə bağlıdır və beləliklə, neft ABŞ-ın İraqda mövcudluğunda əsas amil deyildir. Ona görə də İraq təkcə zəngin enerji ehtiyatlarına görə deyil, həm də unikal coğrafi və geosiyasi yerləşməsi və zəngin tarixi kimi amillərin olması amerikalılar üçün xüsusi əhəmiyyət kəsb edir. Buna görə də İraqı Yaxın Şərq və Şimali Afrika regionunun ən böyük ölkələrindən biri hesab etməyə imkan verirdi. Bu da regionda İraq enerji resurslarının aparıcı regional ixracatçıları ilə, eləcə də regionun digər iri iqtisadiyyatları - Türkiyə və Misirlə rəqabət aparır [7]. İraq strateji əhəmiyyətli dövlətdir, çünki onun ərazisindən Avropadan Yaxın Şərq və Cənubi Asiya ölkələrinə quru və hava yolları keçir. Bundan əlavə, o, Fars körfəzi və Aralıq dənizini Suriya ərazisi və Qırmızı dəniz, İordaniya ərazisindən keçərək, Umm Qəsr limanı vasitəsilə Fars körfəzinə birləşdirən körpüdür. İraqa nəzarət edən şəxs İraq ərazisindən qonşu ölkələrə - İran, Suriya, və Türkiyəyə, eləcə də bütün Fars körfəzi zonasına nəzarət edə bilərdi [1].

Qeyd olunduğu kimi, İraqda neft 1925-ci ildə Kərkük yatağında, sonra isə İraqın mərkəzi və cənubunda, xüsusən də Bəsrə şəhərində digər neft yataqları aşkar edilmişdir [Mejcher, 1980]. 1932-ci ildə İraq Böyük Britaniyadan müstəqillik qazandı, bu da öz növbəsində ölkədə neft hasilatına nəzarəti zəiflətdi. Lakin 1958-ci ilə qədər əyalətin neft sənayesində dominantlıq edən Iraq Petroleum şirkəti xarici kapitalın nəzarətində idi və bu da müəyyən qədər dövlətin güclənməsinə kömək etdi. Aralıq dənizinə neft kəmərinin tikintisinin bir hissəsi kimi Yaxın Şərqdə Britaniya və Fransa, eləcə də Amerikanın hərbi-strateji mövqeləri və regionda nəqliyyat infrastrukturu obyektlərinin tikintisində iştirakı İraqı asılı vəziyyətə salmışdır [9]. Xarici neft kapitalından asılılığını azaltmaq üçün İraq milli neft emalı zavodları tikməyə nail olsalar da, ABŞ və digər xarici şirkətlər İraq neftinə nəzarəti davam etdirirdilər. 1972-ci ildə İraqda neft sənayesinin milliləşdirilməsindən sonra, statistik məlumatlara görə, İraqın neft ehtiyatları 112 milyard bareli, sübut olunmamış ehtiyatların payı isə 362 milyard bareli ötmüşdür [3]. İraq neftinin ən mühüm xüsusiyyəti onun ucuz hasilatının maya dəyərinin olması idi. Belə ki, bir barel üçün 2 dolları keçmirdi ki, bu da Amerika neftinin hasilatının dəyərindən hər barel üçün 14 dollar ucuz idi. İraq hazırda dünyanın dördüncü ən böyük neft ixracatçısı və OPEK ölkələri arasında ikinci ən böyük neft hasilatçısına çevrilmişdir. O, 147 milyard bareldən çox təsdiqlənmiş neft ehtiyatına malikdir. Bu da qlobal tədarükün təxminən 9%-ini təşkil edir ki, ehtiyatların hasilata nisbətinin çox yüksəlməsi deməkdir (2018-ci ildə gündə 4,6 milyon barel). Bu ölkədə həm də 125,6 trilyon kubmetr qaz ehtiyatı vardır [16]. İraqın qlobal enerji təchizatına əhəmiyyətli təsir

göstərən ən böyük neft dövlətlərindən biri hesab edildiyini nəzərə alsaq, ABŞ-ın bu dövlətə marağı başa düşüləndir.

Beləliklə dünya iqtisadiyyatında keçən əsrin 50-ci illərindən sonra dəmiryolları və qida şirkətləri, eləcə də banklar və avtomobil sənayesi aparıcı yer tutsa da, lakin 1979-cu ildən sonra neft sənayesinin rolunun artması, dominant yer tutdu və tutmaqda davam edir. Hətta keçən əsrin 70-ci illərin enerji böhranlarından sonra ABŞ dövlət katibi Henri Kissincer neftin qiymətini qaldıran ərəb ölkələrinə qarşı hərbi güc tətbiq etməklə hədələmişdi. Lakin 1979-1980-ci illərin sonunda Sovet qoşunlarının Əfqanıstana daxil olması ilə vəziyyət dəyişdi. Ona görə də ABŞ prezidenti Cimmi Karter Fars körfəzinin Birləşmiş Ştatlar və bütün Qərb dünyası üçün həyati əhəmiyyət kəsb edən ərazi hesab edildiyi Karter Doktrinasını elan etdi, bununla əlaqədar olaraq İraqa dəniz qüvvələrinin göndərilməsi qərara alındı. Hətta Körfəz böhranı zamanı Amerikanın Herald Tribune qəzeti 27 avqust 1990-cı ildə yazırdı: "ABŞ siyasətini bilən hər bir amerikalı yaxşı bilir ki, Birləşmiş Ştatlar İraqa qarşı demokratiya uğrunda mübarizə aparmır, çünki ərəb dünyasında demokratiya yoxdur. Birləşmiş Ştatlar sərvətə - yanacaq sənayesinə nəzarət etmək üçün İraqa təzyiq göstərir" [5].

11 sentyabr 2001-ci il terror hücumlarından sonra Amerikanın strateji planlaşdırmasında dəyişikliklər baş verdi. Terrorizm beynəlxalq aləmdə silahlı münaqişənin əsas formalarından birinə çevrildi. Bu baxımdan ABŞ-ın yeni strategiyasına görə, terrorla mübarizə bu dövlətin əsas məqsədlərindən biri olmuşdur. ABŞ terrorizmə qarşı müharibəyə rəhbərlik edir və dünyanın bir neçə ölkəsini, əsasən də Yaxın Şərq regionunu terrorçuları himayə edən dövlətlər siyahısına daxil etmişdir. Terrorizmi (xüsusən də İraqda) aradan qaldırmaq üçün ABŞ-da yeni strategiya yaradıldı ki, bu da dünya xəritəsinin Amerikanın maraqlarına uyğun şəkildə yenidən qurulmasına yönəlmişdi. ABŞ prezidenti Corc Buş İraqı İran və Şimali Koreya ilə birlikdə üç tərəfdən biri kimi göstərərək "şər oxu" ifadəsini işlətmişdir ki, bu da onun siyasi, geostrateji və iqtisadi məqsədlərinə xidmət etməli idi. Çünki ABŞ İraq müharibəsindən sonra iqtisadi amillərin roluna diqqət yetirirdi. Maraqlı fakt ondan ibarətdir ki, 2003-cü ildə Amerikanın İraqı işğalı zamanı əsas məqsədləri terrorizmlə mübarizə, eləcə də kütləvi qırğın silahlarının məhv edilməsi olmasına baxmayaraq, işğal zamanı neft sənayesi obyektlərini bombardmanlardan mühafizə etmişdi. Hətta neft quyularında baş vermiş yanğının söndürülməsi üçün bütün mümkün tədbirlər görülmüşdür [20].

Bu cür təfərrüatlar Amerikanın İraqı işğalının əsl səbəbini təsdiqləyirdi. Xatırladaq ki, 2003-cü ildə Birləşmiş Ştatlar İraqın daha yaxşı idarəçilik sistemi ilə əvəz olunacağı və işğal olunmuş enerji yataqlarının ABŞ-ın enerjisinin sabitliyinə təsir göstərəcəyi ümidi ilə Səudiyyə Ərəbistanındakı bazalarından qoşunlarını çıxarmışdı. Birləşmiş Ştatlar İraq neftinin dünyaya tam açılmasını, özəl sektorun inkişafı üçün güclü və cəlbedici stimulların yaradılmasını, iqtisadi inteqrasiyanın əldə edilməsini ehtiva edən strategiya tətbiq etməyə çalışırdı. Bir çox mütəxəssislər tərəfindən ABŞ-ın İraqın yenidən qurulması proqramı İkinci Dünya Müharibəsindən sonra Avropanı yenidən qurmağı öhdəsinə götürən Marşal Layihəsindən sonra dünyanın ən böyük yenidənqurma layihəsi kimi təsvir edilmişdir [8].

11 sentyabr 2001-ci il hadisələri Birləşmiş Ştatların ümumi davranışında keyfiyyət dəyişikliyini əks etdirirdi. Belə ki, 2001-ci ildən sonrakı dövr Buş administrasiyası dövlətin xarici siyasətinin ümumi tendensiyalarında əsaslı dəyişikliklərə əhəmiyyətli təsir göstərmişdir. ABŞ administrasiyası İraqla müharibənin başlanmasına səbəb olan çoxlu sayda saxta arqumentlər, o cümlədən bu dövləti terror əlaqələri, habelə 11 sentyabr hadisələrində iştirak və kütləvi qırğın silahlarına malik olmaqda ittiham edirdi. Amma əslində İraqa qarşı müharibə "neft müharibəsi" idi. Çünki İraq, Birləşmiş Ştatların Səudiyyə Ərəbistanından sonra ikinci ən böyük neft ehtiyatlarının açarına sahibdir. ABŞ-ın Asiyada faktiki olaraq hər bir əsas ticarət tərəfdaşı Fars körfəzindən neftin davamlı axınından asılıdır. Bu da o deməkdir ki, dünyanın hər yerində inkişaf etməkdə olan dövlətlər Fars körfəzinin neft limanlarından və xüsusən də İraqdan asılıdır. Ona görə də ABŞ İraqda mövcud olmalı və regiondakı vəziyyətə nəzarəti davam etdirmək niyyətidə idi [19]. Bununla yanaşı, digər beynəlxalq aktyorların, xüsusən də Rusiya və Çinin İraqda mövcudluğunun qarşısını almaq Vaşinqton üçün vacib şərt olmuşdur. Beləliklə, ABŞ-ın siyasi rəsmiləri İraqın işğalının ölkənin neft sərvətlərinin istehsalında hakim olmaqla regiona nəzarət etmək imkanı verən həll yolu olduğu qənaətinə gəlmişdilər [12].

Qeyd olunduğu kimi dünya nəzarətinin əsas "alətlərindən" biri olan neft Amerika qüvvələrinin İraqı işğal etməsində mühüm amil olmuşdur. İraqdakı qələbə həm də ABŞ administrasiyasına "qlobal

fəthlərə", eləcə də bu dövlətdə birbaşa hökmranlığa nail olmağa imkan verirdi [5]. Çünki neft Amerikanın xarici siyasətinin ən mühüm siyasi məqsədidir və buna görə də Körfəz müharibəsindən sonra İraq müharibəsinin olması aydın məsələ idi [17]. Bu yöndə Britaniyalı jurnalist Robert Fiskin fikri ilə razılaşmamaq çətindir: "Birləşmiş Ştatlar qlobal neft mənbələrinə nəzarət etməli olacaq... Əgər İraq neftin 25%-nə nəzarət etmək əvəzinə, çuğundur ixrac etsəydi, Birləşmiş Ştatlar İraqı işğal etməzdi" [14].

Təqdim olunan bütün faktlara əsaslanaraq, araşdırmanın nəticəsi olaraq aşağıdakılar əldə edilmişdir: ABŞ-nın İraqda geostrateji, iqtisadi və siyasi maraqlarını həyata keçirməklə yanaşı, əsas məqsədi neftdir. Məhz bu fakt ABŞ-da yeni strategiyanın hazırlanmasına səbəb oldu və Yaxın Şərq layihəsinin həyata keçirilməsi baxımından İraqın Amerika maraqlarına xidmət etməsinin vacibliyini aydınlaşdırmışdı. Lakin unutmaq olmaz ki, İraqda hökmranlıq həm də ABŞ-a İranı nəzarətdə saxlamağa və bu dövlətin öhdəsindən gələ biləcəyi istənilən çağırışa cavab verməyə hazır olmağa imkan verirdi. Həmçinin belə qənaətə gəlmək olar ki, ABŞ hər hansı beynəlxalq aktyorun İraqın enerji resurslarında maraqlı olduğunu hiss etsə, o zaman Vaşinqton silahlı qüvvələrdən istifadə etməyə hazır olacaqdır. Yəni nefti regionda təhlükəsizliyin sabitliyini pozan əsas səbəblərdən biri adlandırmaq mümkündür. Bundan əlavə, İraqın işğalı ABŞ-a Yaxın Şərqin qəlbində yer almağa və oradan öz hegemonluğunu Körfəz ölkələrinə, eləcə də regionda Amerika hərbi bazalarının olmasını təmin etməyə imkan verirdi. Həm də ABŞ-ın təhlükəsizliyinə və ya regionun təhlükəsizliyinə təsir edən hər hansı bir fövqəladə hadisə baş verərsə, onun bu yerlərə yaxın olmasına və belə bir vəziyyətə tez reaksiya verməsinə imkan verəcəkdi.

Əslində İraq xalqını Səddam rejimdən xilas etmək və ya ərəb dünyası ilə İsrail arasında balans yaratmaq üçün ABŞ-nın İraq müharibəsinə ehtiyacı yox idi. ABŞ rəhbərliyinin əsas məqsədi İraq neftinə nəzarəti ələ keçirmək idi ki, bu da Vaşinqtonu beynəlxalq sistemin zirvəsinə qaldırmağa və prezident Corc Buşun strategiyasının ortaya çıxmasından sonra beynəlxalq münasibətlərin birqütblü sistemi ideyasını dəstəkləməyə imkan verməli idi. Yeni strategiyanın ortaya çıxması ABŞ üçün müsbət nəticələr verdi. ABŞ İraqın işğalı ilə öz məqsədlərinə nail ola bildi ki, bu da öz bəyanatlarına görə terrorizmlə mübarizədə zəruri addım idi. Lakin təqdim olunan faktlara əsasən belə nəticəyə gəlmək olar ki, İraq dünya hegemonlarının rəqabətində növbəti siyasi qurbana çevrildi.

ƏDƏBIYYAT

1. Aboud, A, 2014. American strategy for the Iraqi development. – Available at: http://www.ahewar.org/debat/show.art.asp?aid=420136&r. [27.09.2024].
2. A country that is rich and a people that can't find food. What do you know about Iraqi oil. 2019. Available at: http://khaleej.online/Gbz4Mn [27.09.2024].
3. Абиди, Х.Л. Иракская нефть и нефтяная политика в Ираке и в регионе в свете американской оккупации: в 3 т. / Х.Л.аз-Забиди. – Багдад: Иракский центр исследований, 2007. – Т.1. – 366 с.
4. Al-shamhi Rahman, 2018. American ambitions for the Iraqi and Syrian oil threaten the organization of OPEC. Available at: http://tishreen.news.sy/?p=21359 [27.09.2024].
5. Al-Falah Abdul-Khaliq. 2019. «Iraq to where ... civilised dialogue has moved». http://www.ahewar.org/debat/show.art.asp?aid=657203 [27.09.2024].
6. Айдрус, И.А. Меланьина М.В. Экономические санкции в условиях глобализации: проблемы теории и современная практика Ирака // Азия: вектор развития внешнеэкономического сотрудничества с Россией в условиях санкций. Ежегодник – 2016. Под редакцией Л.В. Шкваря. Москва, 2016.
7. Багдасаров, С.А. Ближний Восток. Вечный конфликт. М.: Эксмо, 2016.
8. Ван-Вактор, С.А. Нефть благословенная и проклинаемая. Международный нефтегазовый бизнес от скважины до бензоколонки / С.А. Ван-Вактор. – М.: Альпина Паблишер, 2014
9. Chatelus, M. Iraq and Its Oil: Sixty-five Years of Ambitions and Frustration // Iraq: Power and Society / ed. by D. Hopwood. – Oxford: St. Antony's College, 1993. – P. 141–161.
10. Haled al-Ardawi, 2019. Iraq and the United States of America, study the future foreign policy of Iraq. https://abu.edu.iq/sites/default/files/jurnals/abu/3/3-13.pdf [27.09.2024].

11. Heba Burhan al-Azzawi. 2014. The events of September 11, 2001 and its impact on international politics. http://www.ahewar.org/debat/show.art.asp?aid=408271 [27.09.2024].
12. Hamisa, O. 2015. Oil research in the US-Arab relations on the example of Algeria (1990–2014). http://www.ahewar.org/debat/show.art.asp?aid=657203 [27.09.2024].
13. Ергин Д. Всемирная история борьбы за нефть, деньги и власть. – М.: Альпина Паблишер, 2016.
14. Makarim, I. 2010. Is oil the cause of America's war with Iraq? http://www.ahewar.org/debat/show.art.asp?aid=224067 [27.09.2024].
15. Mejcher H. Die Politic und das Ol im Nahen Osten. Bd. I. Der Kampf der Machte und Konzerne vor dem Zweiten Weltkrieg. – Stuttgart: Klett-Cotta, 1980.
16. Salema, A. 2010. America has succeeded in achieving its goals of occupying Iraq. http://khaleej.online/Gbz4Mn [27.09.2024].
17. Saleh, l. 2014. American policy in Iraq: divide and conquer. http://www.alriyadh.com/19560
18. Сушенцов, А.А. Эволюция политических приоритетов США в Ираке / А.А. Сушенцов // США – Канада. Экономика, политика, культура. – 2010. – № 7. – С. 53–66.
19. Шумилин, А. И. Проблема нефти и перспектива вывода американских войск изИрака / А.И.Шумилин // США– Канада. Экономика, политика, культура. – С. 37–54.
20. Thomas, P.M. Barnet. America's Post-Oil Grand Strategy, 18 February 2016. http://thomaspmbarnett. squarespace.com/globlo gization/2016/2/18/americas-post-oil-grand-strategy.html [27.09.2024].

АЙТЕН КАРИМЛИ
Бакинский Государственный Университет,
Кафедра истории стран Европы и Америки

РОЛЬ ИРАКСКОЙ НЕФТИ В СТРАТЕГИИ США

В статье рассматривается ретроспективно историческое значение нефтяного вопроса в пребывании американских военных в Ираке. Автор приходит к выводу, что оккупация Ирака США была в значительной степени направлена на контроль над разработкой обильных нефтяных ресурсов Ирака, а не на борьбу с терроризмом, после тщательного изучения геостратегических, экономических и политических интересов США в районе Персидского залива, особенно в Ираке. Помимо возможности контролировать цену на нефть на этом мировом рынке, в интересах Соединенных Штатов было не допустить доминирования других иностранных игроков в этом районе и избежать соперничества в борьбе за энергетические ресурсы. Выяснение того, как иракская нефть вписывается в американскую политику, и анализ того, как энергетические ресурсы стали главной проблемой в оккупации Ирака, являются важными темами исследований для Ближнего Востока.

Ключевые слова: Ирак, США, Ближний Восток, оккупация, нефть, терроризм, стратегия.

AYTAN KARIMLI
Baku State University,
Department of History of European and American Countries

THE ROLE OF IRAQI OIL IN US STRATEGY

The article examines, in retrospect, the historical significance of the oil issue in the US military's stay in Iraq. The author comes to the conclusion that the US occupation of Iraq was largely intended to control the development of Iraq's abundant petroleum resources, rather than to combat terrorism, after carefully examining the geostrategic, economic, and political interests of the US in the Persian Gulf area, particularly in Iraq. In addition to allowing it to control the price of oil on this

global market, it was in the interests of the United States to prevent other foreign players from dominating the area and to avoid rivalry in the fight for energy resources. Finding out how Iraqi oil fit into American policy and analyzing how energy resources became a major issue in the occupation of Iraq are important research topics for the Middle East.

Keywords: Iraq, USA, Middle East, occupation, oil, terrorism, strategy.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 27 sentyabr 2024-cü il.
Məqalənin çapa qəbul olunma tarixi: 15 noyabr 2024-cü il.
Rəyçilər: t.e.d. Aida Bağırova, t.ü.f.d. Məmmədağa Baxışov.